**“AZƏRBAYCAN DƏMİR YOLLARI”**
**QAPALI SƏHMDAR CƏMİYYƏTİ**

**UNİVERSAL VAQON-PLATFORMALARIN (FİTİNQLƏRLƏ BİRLİKDƏ)**

**SATIN ALINMASI**

**üzrə**

**AÇIQ TENDERİN**

# ƏSAS ŞƏRTLƏR TOPLUSU

**№ 0004-25/AT**

**BAKI - 2025**

Sənəd №: 13-1/3-60-4299/2025
Tarix: 24.02.2025

## MÜSABİQƏYƏ DƏVƏT

"Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyəti (bundan sonra – "ADY") Sizi, ADY-nin Müşahidə Şurasının 16 fevral 2024-cü il tarixli 2/2024 nömrəli qərarı ilə təsdiq olunmuş "Azərbaycan Dəmir Yolları" Qapalı Səhmdar Cəmiyyətinin satınalmaların təşkili və idarə olunması Qaydaları"nın (bundan sonra - Qaydalar) tələblərinə uyğun olaraq açıq tender metodu ilə **UNİVERSAL VAQON-PLATFORMALARIN (FİTİNQLƏRLƏ BİRLİKDƏ)** (malların siyahısı və onlara aid tələblər 5 nömrəli Qoşmada verilmişdir) satın alınması müsabiqəsi (bundan sonra - müsabiqə) ilə bağlı təklifinizi təqdim etməyə dəvət edir.

### 1. Müsabiqə təkliflərinin hazırlanması, təqdim edilməsi və təklifə əlavə edilməsi tələb olunan digər sənədlər

1.1. Müsabiqə təklifi aşağıdakı sənədlərdən ibarət olmalıdır:

- müsabiqə təklifi və qiymət cədvəlləri (Qoşma 1);
- müsabiqə təklifinin təminatı (Qoşma 2);
- Son bir ilin yekunu üzrə maliyyə hesabatı (mənfəət bəyannaməsi);
- Müvafiq vergi orqanından aşağıdakı məlumatları özündə əks etdirən arayışlar:
  - cari ilin müvafiq hesabat dövrü üzrə hesablanmış, ödənilmiş vergilər və vergi borcları barədə məlumat;
  - faktiki fəaliyyət istiqaməti və hesabat dövründə mal, iş, xidmət satışı üzrə dövriyyəsi barədə məlumat;
  - işçi sayı barədə və ödənilən orta aylıq əmək haqqı barədə məlumat;
  - təsərrüfat subyektləri barədə məlumat (ünvanlar və obyektlərin təyinatları barədə);
  - hüquqi (qeydiyyat) və faktiki ünvanlar fərqlidirsə, faktiki ünvan barədə məlumat;
  - idxal və ixrac əməliyyatları barədə məlumat (əgər varsa);
  - riskli vergi ödəyicisi olub-olmaması barədə məlumat.
- iddiaçının (iştirakçının) son bir il ərzində (əgər daha az müddət ərzində fəaliyyət göstərirsə, bütün fəaliyyət göstərdiyi dövürdə) maliyyə vəziyyəti barədə bank tərəfindən verilmiş arayış;
- son 3 (üç) il ərzində (əgər daha az müddət ərzində fəaliyyət göstərirsə, bütün fəaliyyəti dövründə) iddiaçının (iştirakçının) yerinə yetirdiyi anoloji müqavilələr haqqında məlumat (Qoşma 3);
- İddiaçının (iştirakçının) hüquqi statusunu təsdiq edən sənədlərin: nizamnamə, reyesterdən çıxarış və vergi şəhadətnaməsinin surəti;
- İddiaçının (iştirakçının) hüquqi ünvanı və bank rekvizitləri (Qoşma 4).

1.2. İddiaçının (iştirakçının) səlahiyyətli nümayəndəsi tərəfindən imzalanmış və İddiaçının (iştirakçının) möhürü ilə təsdiq edilmiş müsabiqə təklifi və bank tərəfindən verilmiş, müsabiqə təklifinin ümumi məbləğinin 1 (bir) %-i dəyərində bank təminatı bir əsli və bir surəti olmaqla iki nüsxədə hazırlanmalı, "Əsli" və "Surəti" sözləri yazılmış ayrı-ayrı zərflərə qoyaraq imzalanıb, möhürlənməlidir. Zərflərin üzərində müsabiqə predmetinin adı, iddiaçının (iştirakçının) ünvanı, səlahiyyətli nümayəndəsinin əlaqə nömrələri və elanda göstərilən açılış tarixinin və vaxtının sözləri (**"__" _________ 20__-cü il, saat __:__-dək açılmamalıdır**") qeyd edilməlidir.

1.3. İddiaçının (iştirakçının) hazırladığı müsabiqə təklifi, eləcə də bütün yazışmalar və sənədlər Azərbaycan, rus və ya ingilis dilində tərtib edilməlidir. İddiaçının (iştirakçının) təqdim etdiyi müşaiyətedici sənədlər başqa dildə tərtib edilə bilər.

1.4. Müsabiqə təkliflərinin qüvvədə olma müddəti zərflərin açıldığı gündən sonra ən azı 45 (qırx beş) bank günü olmalıdır. Müsabiqə təklifinin təminatının qüvvədə olma müddəti isə təklifin qüvvədə olma müddətinin son tarixindən etibarən ən azı 30 (otuz) bank günü çox qüvvədə olmalıdır.

**<u>Qeyd</u>:** Bank günü dedikdə, qeyri-iş günləri (şənbə, bazar, iş günü hesab edilməyən rəsmi bayram günləri və hüzn günləri) çıxılaraq hesablanır. Eyni zamanda satınalma prosesi ərəfəsində təxirəsalınmaz tədbirlərlə əlaqədar təyin edilmiş qeyri-iş günləri nəzərə alınmalıdır.

1.5. Əsas şərtlər toplusunun 1.1-ci bəndində göstərilmiş digər sənədlər (Müsabiqə təklifi, qiymət cədvəlləri və müsabiqə təklifinin təminatı istisna olmaqla) bir bağlamada **zərflərinin açıldığı gündən ən azı 7 (yeddi) gün əvvəl**, maliyyə təklifləri isə imzalanıb, möhürlənmiş bağlı zərflərdə **elanda göstərilən tarixdən** gec olmayaraq <u>Bakı şəhəri, Dilarə Əliyeva küç., 230 ünvanında yerləşən, ADY-nin Təchizat departamentinin Satınalma şöbəsinə</u> təqdim edilməlidir. **Təkliflərin verilmə müddəti bitdikdən sonra ADY-yə təqdim edilən müsabiqə təklifi açılmadan təklifi təqdim edən iddiaçıya qaytarılır.**

1.6. Hər bir iddiaçı (iştirakçı) müsabiqədə yalnız bir iddiaçı qismində iştirak edə bilər və yalnız bir təklif vermək hüququna malikdir. Alternativ təklfin nəzərdə tutulduğu hallar istisna olmaqla, təklif zərfindən iki və daha artıq təklif aşkar edilmiş iddiaçı və onun belə təklifi müsabiqədən uzaqlaşdırılır.

1.7. İddiaçı (iştirakçı), onun törəmə müəssisələri, direktorlar (müşahidə) şurasının və icra orqanının rəhbəri və üzvləri, vəzifəli şəxsləri və ya işçiləri, həmin şəxslərin yaxın qohumları, iddiaçının və ya onun törəmə müəssisələrinin adından fəaliyyət göstərən hər hansı agent və ya digər şəxsləri hazırda ABŞ Maliyyə Departamentinin Xarici Aktivlərə Nəzarət İdarəsi (“OFAC”) və ya ABŞ Dövlət Departamenti, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurası, Avropa İttifaqı və Birləşmiş Krallığın Xəzinədarlıq idarəsi tərəfindən tətbiq edilən sanksiyaların siyahısında yer almamalıdır.

1.8. Müqavilə qalib iddiaçıya verilirsə, rekvizitlərdə qeyd olunan bankı heç bir halda ABŞ Maliyyə Departamentinin Xarici Aktivlərə Nəzarət İdarəsi (“OFAC”) və ya ABŞ Dövlət Departamenti, Birləşmiş Millətlər Təşkilatı Təhlükəsizlik Şurası, Avropa İttifaqı və Birləşmiş Krallığın Xəzinədarlıq idarəsi tərəfindən tətbiq edilən sanksiyaların siyahısında yer almamalıdır.

1.9. Müsabiqə təklifində dəyişiklik, sətirarası əlavələr və düzəlişlər zərflərin son qəbul tarixindən gec olmamalıdır.

1.10. Qalib gəlmiş iddiaçı ilə müqavilənin şərtlərini qəbul etmək barədə yazılı niyyət ifadəsi alınana gədər heç bir müsabiqə təklifi qəbul olunmuş hesab edilmir və bütün müsabiqə təklifləri qüvvədə olduğu müddət ərzində qiymətləndirilir.

1.11. Göstərilən qaydada və müsabiqə vaxtında təqdim edilməyən müsabiqə təklifi açılmadan geri qaytarılır və iddiaçı müsabiqəyə buraxılmır.

1.12. Satınalma prosedurları ilə bağlı hər hansı qərarın qəbul olunmasına təsir göstərmək məqsədi ilə iddiaçının korrupsiya ilə əlaqədar hüquqpozmalara dair şəraitin mövcudluğu, o cümlədən müsabiqənin keçirilməsi zamanı iddiaçılar arasında qiymətin qaldırılmasına və müsabiqə nəticələrinə təsir edə biləcək digər məsələlərə yönələn sövdələşmə müəyyənləşdirdikdə, bu təsdiq edildikdə və müsabiqənin keçirilməsi zamanı iddiaçılar arasında qiymətin qaldırılmasına yönələn sövdələşmə müəyyən etdikdə, ADY:

- həmin iddiaçının təqdim etdiyi müsabiqə təkliflərini kənarlaşdırır;
- həmin iddiaçının gələcək satınalma prosedurlarında iştirakını qadağan edir.

1.13. Əlaqələndirici şəxs əsas şərtlər toplusuna uyğun təqdim edilmiş və ya dəvət edilmiş iddiaçıların təkliflərini təyin olunmuş zamandək qəbul edir və sənədlərin daxilolma ardıcıllığının qeydiyyatının aparılmasını təmin edir.

## 2. Müsabiqə təklifləri zərflərinin açılması

2.1. Təklif zərfləri, Bakı şəhəri, Nəsimi rayonu, Dilarə Əliyeva küçəsi, 230 ünvanında yerləşən, ADY-nin inzibati binasında, Satınalma komissiyası tərəfindən **elan edildikdən 15 (on beş) bank günü sonra** daxil olduqları ardıcıllıqla açılır.

2.2. Zərflərin açılmasında hər bir təklifi təqdim edən iddiaçının adı, ünvanı, təklifin qiyməti, təklifin təminatı, tədarük şərti, tədarük müddəti, təklifin və bank təminatı [illegible] də olma

müddəti, ödəniş şərti, mənşə ölkəsi və Satınalma komissiyasının lazım bildiyi bir sıra məlumatlar elan edilir. İddiaçı və ya onun qanuni nümayəndəsi zərflərin açılışında iştirak edə və təkliflərinə dair elan olunan məlumatı təsdiqləyə bilər.

2.3. Təklif vermiş, lakin zərflərin açılışında iştirak etməyən iddiaçılara, onların sorğusu əsasında açılış zamanı bütün təkliflərə dair elan olunmuş məlumatlar bildirilir.

**3. Müsabiqədəki məlumatlar və sənədlərin konfidensiallığı**

3.1. İddiaçılar hazırki müsabiqə ilə əlaqədar ADY tərəfindən təqdim edilən bütün məlumatların konfidensiallığını təmin etməlidirlər.

3.2. Müsabiqədəki məlumatlar və sənədlər ADY-nin yazılı razılığı olmadan, heç bir halda, üçüncü tərəflərə ötürülə bilməz.

**4. Satınalma komissiyasının istənilən və ya bütün müsabiqə təkliflərini rədd etmək hüququ**

4.1. Satınalma komissiyası aşağıdakı hallarda bütün təkliflərin rədd edilməsi ilə satınalma müsabiqəsinin ləğv olunması qərarını qəbul edə bilər:

- müsabiqə predmetinin maliyyələşdirilməsi dayandırıldıqda;
- müsabiqə predmetinin satın alınması təxirə salındıqda;
- müsabiqədə iştirak etmək üçün təklif vermiş iddiaçıların sayı üçdən az olduqda.

4.2. Müsabiqə təkliflərinin rədd edilməsinə dair bildiriş onları müsabiqəyə təklif təqdim etmiş bütün iddiaçılara dərhal göndərilir.

4.3. ADY 4.1-ci bəndin tətbiqi üçün iddiaçıların qarşısında heç bir məsuliyyət daşımır.

**5. İddiaçının (iştirakçının) ixtisas göstəriciləri**

5.1. İddiaçılar müsabiqənin qalibi seçilə bilmələri və satınalma müqaviləsini yerinə yetirə bilmələri üçün lazımi ixtisas göstəricilərinə malik olmalıdırlar və ADY iddiaçıların əqli mülkiyyətlərini və ya kommersiya sirlərini qorumaq hüququnu nəzərə almaqla, onlardan aşağıda göstərilmiş ixtisas göstəricilərinə malik olduqlarını təsdiq edən sənədli sübutlar və ya digər məlumatlar tələb edə bilər.

5.2. İddiaçının (iştirakçının) ixtisas göstəriciləri aşağıdakı meyarlara uyğun gəlməlidir:

- satınalma müqaviləsinin icrasını təmin etmək məqsədi ilə müvafiq sahədə peşəkarlığı, təcrübəsi, texniki və maliyyə imkanları, işçi qüvvəsi, idarəetmə səriştəsi, etibarlılığı olmalıdır;
- Satınalma müqaviləsini bağlamaq səlahəyyəti olmalıdır;
- Balansında olan əmlakından sərbəst və məhdudiyyətsiz istifadə etmək imkanları, habelə ödəmə qabiliyyətli olmalıdır;
- Müflis elan olunmamalı, əmlakı üzərinə həbs qoyulmamalı, ödənişə yönəlmiş girovu olmamalı, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmamalıdır;
- Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəlikləri olmamalıdır, habelə son bir il ərzində (fəaliyyətini dayandırdığı müddət nəzərə alınmadan) Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə müəyyən edilmiş vəzifələrinin yerinə yetirilməməsi halları mövcud olmamalıdır;
- Satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmamalı və ya onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olması məhkəmə qaydasında qadağan edilməməlidir;
- Müvafiq sahibkarlıq fəaliyyəti növünün həyata keçirilməsi və ya müəyyən hərəkətlərin yerinə yetirilməsi üçün müvafiq lisenziyaya və ya icazəyə malik olmalıdır;
- ADY-nin satınalma prosedurlarında iştirakı qadağan edilmiş olmamalıdır.

5.3. İxtisas göstəriciləri 5.2-ci bənddə qeyd olunmuş tələblərə uyğun gəlməyən iddiaçının təklifi kənarlaşdırılacaqdır.

## 6. Valyuta növü

6.1. Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri müsabiqə təkliflərində bütün qiymətlərini manatla göstərməlidirlər.

6.2. Xarici hüquqi və fiziki şəxslərin təklifləri sərbəst dönərli valyuta ilə göstərildikdə, təkliflərin müqayisəsi və qiymətləndirilməsi məqsədilə təkliflərinin verilməsinin son gününə olan Azərbaycan Respublikası Mərkəzi Bankının müəyyən etdiyi məzənnə əsas götürülür.

## 7. Malların mənşəyini, keyfiyyətini və əsas şərtlər toplusunun tələblərinə uyğunluğunu təsdiq edən sənədlər.

7.1. İddiaçı təklif etdiyi malların keyfiyyətini və əsas şərtlər toplusunun tələblərinə uyğunluğunu təsdiqləyən sənədləri özünün müsabiqə təklifinin bir hissəsi kimi təqdim etməlidir.

## 8. Malların çatdırılacağı yer və çatdırılma müddəti

8.1. Ölkə xaricindən təklif olunan mallar Beynəlxalq Ticarət Palatası-İCC tərəfindən dərc olunmuş İnkoterms-2020 şərtləri ilə (yalnız CPT, CIP, DAP, DPU, DDP şərtləri qəbul ediləcək) çatdırılmalıdır, Azərbaycan Respublikası ərazisindən təklif edilən mallar isə ADY-nin mərkəzi anbarına aşağıdakı ünvana təhvil verməlidir:

**Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsi, Mehdi Hüseynzadə küçəsi, 51.**

8.2. Təklifdə məhsulların çatdırılma müddəti göstərilməlidir. Malların çatdırılma müddəti müqavilənin bağlandığı tarixdən etibarən 20 (iyirmi) iş günündən çox ola bilməz. Çatdırılma müddəti 20 (iyirmi) iş günündən çox olduğu təqdirdə iddiaçı kənarlaşdırıla bilər.

8.3. Satınalma müqaviləsi qüvvəyə mindikdən sonra müqavilədə göstərilmiş şərtlərə uyğun malları tam və ya lazımi qaydada təchiz etməyən malgöndərən (podratçı) cərimələnə və eyni zamanda etibarsız malgöndərən (podratçı) kimi ADY-nin bütün satınalma əməliyyatlarından uzaqlaşdırıla bilər.

## 9. Müsabiqə təkliflərinin qiymətləndirilməsi

9.1. Müsabiqə təkliflərinə baxılmasını, onların qiymətləndirilməsini və müqayisəsini asanlaşdırmaq məqsədi ilə ADY iddiaçıdan öz müsabiqə təkliflərinə dair izahat verməsi üçün sorğu verə bilər. Qiymətlərin dəyişdirilməsi və formal tələblərə uyğun gəlməyən müsabiqə təklifinin həmin tələblərə uyğunlaşdırılmasına yönəldilmiş dəyişikliklər də daxil olmaqla, müsabiqə təklifinin mahiyyətini dəyişdirmək məqsədi daşıyan heç bir sorğuya, təklifə və ya icazəyə yol verilmir.

9.2. ADY müsabiqə təklifinin dolğunluğunu, hesablamalarda olan səhvləri, lazım olan təminatı, sənədlərdə bütün imzaları bir-bir öyrənir, habelə bütünlükdə müsabiqə təklifinin sənədləşdirilməsinin düzgünlüyünü yoxlayır.

9.3. Hesab səhvləri aşağıdakı kimi düzəldilir. Əgər mal vahidinin qiyməti ilə, malın miqdarının mal vahidinin qiymətinə vurulmaqla alınan ümumi qiymət arasında fərq alınarsa, onda vahidin qiymətinə üstünlük veriləcək, ümumi qiymətə isə buna müvafiq olaraq düzəliş ediləcəkdir (vahidinin qiymətində tamdan onluq və ya yüzlük kəsirlərin ayrılması üçün vergül işarəsinin səhvən qoyulmaması halları istisna olmaqla). Əgər söz ilə rəqəm arasında fərq varsa, onda söz ilə ifadə olunmuş məbləğə üstünlük veriləcəkdir. ADY hər hansı belə düzəliş barəsində müsabiqə təklifini vermiş iddiaçıya ləngimədən məlumat verir.

9.4. Müsabiqə təkliflərində müsabiqə sənədlərinin şərtlərindən əhəmiyyətli dərəcədə kənara çıxmayan və belə kənaraçıxmaların təklifin qiymətləndirilməsinə təsir göstərmədiyi cüzi uyğunsuzluqları ADY qəbul edə bilər.

9.5. Müsabiqə təklifi aşağıdakı hallarda Satınalma Komissiyası tərəfindən kənarlaşdırılır və iddiaçı müvafiq düzəlişlər etdikdən sonra da, o, tələblərə cavab verən hesab oluna bilməz:

- formal tələblərə uyğun gəlmədikdə;

- qiymətləndirmə prosesini təhrif etmək məqsədi ilə uyğun olmayan cəhd və hərəkətlər edildikdə;
- müsabiqə təklifi ehtimal olunan qiymətdən yüksək olduqda;
- iddiaçının satınalma predmetini təqdim etmək imkanının olmaması faktı müəyyən edildikdə;
- korrupsiya ilə əlaqədar hüquqpozmalara dair şəraitin mövcudluğu, o cümlədən müsabiqənin keçirilməsi zamanı iddiaçılar arasında qiymətin qaldırılmasına və müsabiqə nəticələrinə təsir edə biləcək digər məsələlərə yönələn sövdələşmə müəyyən edildikdə.

9.6. Qalib gəlmiş müsabiqə təklifini müəyyənləşdirmək üçün ADY qəbul edilmiş müsabiqə təkliflərini müsabiqənin əsas şərtlər toplusunda (bundan sonra - əsas şərtlər toplusu) göstərilmiş prosedurlara və meyarlara (Qoşma 6) müvafiq surətdə qiymətləndirir və müqayisə edir. Əsas şərtlər toplusunda göstərilməyən meyarlardan istifadə edilmir.

9.7. Müsabiqə təkliflərinin qiymətləndirilməsi meyarları və nisbi qiymətləri aşağıdakılardır:
- **iddiaçının müsabiqəyə təqdim etdiyi təklifinin qiymətinə görə (0-40 bal);**
- **iddiaçı tərəfindən təklif olunan malların çatdırılma müddətinə görə (0-20 bal);**
- **iddiaçının müsabiqəyə təqdim etdiyi təklifinin zəmanət müddətinə görə (0-20 bal);**
- **İddiaçının təqdim etdiyi təklifinin ödəniş şərtlərinə görə (0-20 bal).**

9.8. Təkliflər toplanılan ballar üzrə təsnifləşdiriləcəkdir, ən çox bal toplamış təklif qalib elan olunacaq, hər-hansı bir meyarın qiymətləndirilməsi üçün təklifdə məlumat olmadığı halda həmin meyar üzrə təklif “0” balla qiymətləndiriləcəkdir

9.9. Satınalma komissiyası təklifləri qiymətləndirərkən, yerli mənşəli satınalma predmeti üzrə təklifin xeyrinə 20 faizə qədər həcmdə satınalma güzəşti tətbiq edir. Yerli malların, işlərin və xidmətlərin xeyrinə tətbiq olunan güzəştli düzəlişin faizi həcmində məbləğ müqayisə məqsədilə həmin güzəştli düzəlişin tətbiq edildiyi malın, işin və xidmətin məbləğindən çıxılır.Malın yerli mənşəli olması satınalmada iştirak etmək istəyən hüquqi və fiziki şəxslərin müraciətinə əsasən Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinin (bundan sonra - Xidmət) tabeliyində “İstehlak Mallarının Ekspertizası Mərkəzi” Məhdud Məsuliyyətli Cəmiyyəti (bundan sonra - Mərkəz) tərəfindən malın istehsalçısı olan təchizatçıya münasibətdə ona təqdim edilən malın mənşəyi barədə rəy və Xidmət tərəfindən verilən malın mənşə ölkəsini təsdiq edən sertifikat əsasında, malın istehsalçısı olmayan təchizatçıya münasibətdə isə ona təqdim edilən malın mənşə ölkəsini təsdiq edən sertifikat əsasında müəyyən edilir.Müsabiqədə iştirak edən yerli iddiaçı təqdim etdiyi müsabiqə təklifinə (qapalı zərfdə) malın yerli olmasını təsdiq edən mənşə sənədini əlavə etməlidir. Əks halda güzəşt nəzərə alınmayacaqdır.

9.10. Qalib elan olunmuş (1-ci yer) müsabiqə təklifi vermiş iddiaçıya müsabiqə nəticəsi barədə rəsmi bildiriş verildikdən sonra onunla müəyyən edilmiş qaydada satınalma müqaviləsi bağlanılır. **ADY-nin ən ucuz qiymət təklifi vermiş iddiaçı ilə müqavilə bağlamaq öhdəliyi yoxdur.**

## 10. Müsabiqə təklifinin qiyməti.

10.1. İddiaçı öz təklifinə əlavə etdiyi qiymət cədvəllərində müqavilə çərçivəsində təhvil verəcəyi malların vahidinin qiymətini göstərməlidir.

10.2. Təklif zərfləri açıldıqdan sonra onların dəyişdirilməsinə yol verilmir. Yalnız qalib iştirakçının təklifinə endirimli qiymət və ya daha əlverişli satış şərtləri ilə bağlı hissədə dəyişikliklər qəbul edilə bilər.

## 11. Müqavilə üzrə ödəmələr

11.1. Müqavilə üzrə ödəmələr, müqavilədə müəyyənləşdirilmiş qayda [illegible] müddətdə malgöndərən (podratçı) tərəfindən mallar ADY-yə təhvil verildikcə fak[illegible] təqdim

edilən mallar müqabilində malgöndərənin (podratçının) təqdim etdiyi sənədlər (qaimələr, aktlar, digər sənədlər) əsasında, ADY tərəfindən ən qısa zamanda, lakin 30 (otuz) bank günündən gec olmamaq şərti ilə malgöndərənin (podratçının) bank hesabına köçürmə yolu ilə həyata keçirilir.

11.2. Əgər təklif əvvəlcədən ödəniş tələb edirsə, o zaman məbləğ faizlə göstərilməlidir. **Həmçinin avans ödənişi 30 (otuz) faizdən çox ola bilməz. Avans 30 (otuz) faizdən yuxarı göstərildikdə, təklif formal tələblərə cavab vermədiyi üçün kənarlaşdırıla bilər.**

11.3. Avans ödənişinin məcburi şərti bank təminatının verilməsi olacaqdır. Müsabiqə Təklifləri hazırlanarkən bank təminatının verilməsi xərclərini nəzərə almaq lazımdır.

## 12. Müqavilə üzrə tərəflərin məsuliyyəti və cərimələr

12.1. Tərəflər müqavilə üzrə öhdəliklərini icra etmədiklərinə və ya lazımınca icra etmədiklərinə görə Satınalma müqaviləsinin şərtlərinə və Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən məsuliyyət daşıyırlar.

12.2. Malgöndərən (podratçı) müqavilə üzrə öhdəliklərini müəyyən olunmuş qaydada yerinə yetirmədikdə (gecikdirdikdə), ADY digər hüquqlara xələl gətirmədən (qarşısıalınmaz qüvvənin təsiri istisna olmaqla) malgöndərənə (podratçıya) öhdəliklərinin icrasının hər gecikdirildiyi günü üçün icrası gecikdirilmiş öhdəliyin 0,1%-i (sıfır tam onda bir faizi) dəyərində cərimə tətbiq edə bilər. ADY müqavilədə müəyyən olunmuş müddət ərzində ödəmələri aparmasa, malgöndərən (podratçı) ADY-yə ödənişin hər gecikdirilən günü üçün ödənişi gecikdirilmiş məbləğin 0,1%-i (sıfır tam onda bir faizi) dəyərində cərimə tətbiq edə bilər. Malgöndərən (podratçı) müqavilənin xüsusi şərtlərində göstərilmiş müddətdə qüsurları aradan qaldırmazsa ADY malgöndərənə (podratçıya) qüsurların aradan qaldırılmasının hər gecikdirilən günü üçün qüsurlu malların dəyərinin 0,2 %-i (sıfır tam onda iki faizi) dəyərində cərimə tətbiq edə bilər.

12.3. Tətbiq olunan cərimələrin məbləğinin yuxarı həddi müqavilənin ümumi qiymətinin 10 %-i (on faizi) məbləğində müəyyənləşdirilir. ADY və ya iddiaçı (iştirakçı) bu maksimumu əldə etdikdən sonra müqavilənin ləğv edilməsi məsələsinə baxıla bilər.

## 13. Müsabiqənin əsas şərtlər toplusuna dair izahat verilməsi və onda dəyişikliklərin edilməsi

13.1. İddiaçı ADY-yə əsas şərtlər toplusunun izah edilməsi ilə bağlı sorğu verə bilər. Sorğu elektron formada (yalnız iddiaçının (iştirakçının) rəsmi elektron poçt ünvanı vasitəsi ilə) müsabiqə təkliflərinin verilməsi müddətinin başa çatmasına azı 4 (dörd) bank günü qalanadək əsas şərtlər toplusunda göstərilmiş "Əlaqələndirici şəxs"in elektron poçt ünvanına göndərilə bilər. ADY belə sorğulara müsabiqə təkliflərinin verilməsi müddətinin qurtarmasına azı 2 (iki) bank günü qalanadək cavab verir. Sorğulara cavablar sorğu verənin ünvanı göstərilmədən, müsabiqənin əsas şərtlər toplusunu almış bütün müsabiqə iştirakçılarının elektron poçt ünvanına əlaqələndirici şəxs tərəfindən göndərilir. Müsabiqə təkliflərinin verilməsinə təsir edə biləcək bütün müzakirələr yazılı şəkildə (elektron poçt vasitəsilə) olmalıdır.

13.2. ADY müsabiqə təklifləri verilməsinin son müddəti başa çatanadək müsabiqənin əsas şərtlər toplusuna öz təşəbbüsü ilə və ya hər hansı iddiaçının sorğusuna cavab olaraq dəyişikliklər edə bilər. Bu barədə məlumat dərhal müsabiqənin əsas şərtlər toplusunu almış bütün iddiaçılara (iştirakçılara) göndərilir. Dəyişikliklər iddiaçılara üçün məcburi qüvvəyə malikdir.

13.3. ADY müsabiqənin əsas şərtlər toplusunun izah edilməsi ilə bağlı iddiaçılarla görüşlər təşkil edə bilər. Bu görüşlərin nəticələri protokollaşdırılır və nəzərə alınmaq üçün dərhal müsabiqənin əsas şərtlər toplusunu almış bütün iddiaçılara göndərilir.

13.4. Müsabiqə prosedurları zamanı verilmiş müsabiqə təklifi, habelə 13.1-ci bənddə nəzərdə tutulan sorğu ilə əlaqədar ADY ilə müsabiqədə iştirak edən iddiaçı arasında danışıqlar aparılmasına və ya işçi qaydada (qeyri-rəsmi) görüşlərin keçirilməsinə y[illegible].

**14. Müsabiqə təklifində dəyişiklik edilməsi və onların geri götürülməsi**

14.1. İddiaçı təklif verdikdən sonra onu bu şərtlə dəyişdirə və ya geri götürə bilər ki, ADY təklifin verilməsi üçün şərtlər toplusunda müəyyən edilən müddət qurtaranadək bu barədə yazılı bildiriş alsın.

14.2. Bildiriş yazılı surətdə təsdiq etməklə elektron poçt ünvanına göndərilə bilər, lakin bu şərtlə ki, müsabiqə təklifinin verilməsinin son müddətindən gec olmasın.

14.3. Müsabiqə təkliflərinin verilməsi müddəti qurtardıqdan sonra onlarda heç bir dəyişiklik edilə bilməz.

14.4. Müsabiqə təkliflərinin verilməsinin son müddəti ilə iddiaçı tərəfindən verilən təklifin qüvvədə olma müddəti arasındakı vaxtda müsabiqə təklifi dəyişdirilə və ya geri götürülə bilməz.

**15. Müsabiqənin təklif zərflərin təqdim edilməsi üçün müəyyən edilmiş vaxtadək ləğv edilməsi**

ADY məqsədəuyğun hesab edərsə və ya əsas şərtlər toplusunda düzəliş edilməsi mümkün olmayan və müsabiqənin səmərəliliyinə mənfi təsir edəcək hər hansı elementin mövcudluğu aşkar edilərsə satınalma müsabiqəsi təklif zərflərinin verilməsinin son müddətinin bitməsinədək ləğv edilə bilər. Belə halda dərhal dəvət olunmuş bütün iddiaçılara məlumat verilməli və təqdim etdikləri təklif zərfləri açılmadan geri qaytarılır. ADY bununla bağlı heç bir məsuliyyət daşımaycaq və iddiaçılar onun bu addımına etiraz edə bilməzlər.

**16. Şikayət vermək hüququ**

16.1. ADY-nin vəzifələrini yerinə yetirməməsi nəticəsində itkiyə və ya zərərə düşdüyünü və ya düşəcəyini bəyan edən iddiaçıların qanunvericiliklə müəyyənləşdirilmiş qaydada şikayət vermək hüququ vardır.

16.2. Aşağıdakılar şikayət obyekti ola bilməz:

- satınalma prosedurlarının dövlət mənsubiyyətinə görə məhdudlaşdırılması;
- ADY-nin bütün müsabiqə təkliflərini rədd etmək qərarı.

**<u>Əlaqələndirici şəxs barədə məlumat</u>**

| Müsabiqə prosedurlarına dair yaranmış suallarla bağlı əlaqələndirici şəxs | |
|---|---|
| Adı və soyadı | Elşad Rəhimov |
| Vəzifəsi | “Azərbaycan Dəmir Yolları” QSC-nin Təchizat departamentinin Satınalma şöbəsi, aparıcı mütəxəssis |
| İş ünvanı | Bakı şəhəri, Dilarə Əliyeva 230 |
| Əlaqə telefonu | (012) 499-44-80, +994-50-277-07-27 |
| Elektron ünvanı | elshad.rahimov@ady.az |

**Qoşma 1**

**Təklifin forması və qiymət cədvəlləri**

Tarix: "__" ____________ 202_ - c_ il

Kimə:_______________________________________________( adı)

Ünvan:____________________________________________ (ünvanı)

Hörmətli cənablar,

Biz, aşağıda imza edənlər, müsabiqənin əsas şərtlər toplusunu öyrənərək, ümumi məbləği ____________ (rəqəmlə) (valyutanı göstərmək) ___________________________________________________ (sözlə) (valyutanı göstərmək) olan malların göndərilməsini təklif edirik (Cədvəl 1 və cədvəl 2 əlavə olunur).

Biz öhdəlik götürürük ki, bizim təklifimiz qalib seçildiyi halda, Sizdən təklifin aksept edilməsi barədə bildirişi aldıqdan sonra müsabiqə təklifində göstərilən malların sifariş edilən hissəsini, hər sifarişiniz daxil olduqdan sonra __________________ ərzində çatdıracağıq.
Bizim təklifimiz qalib seçildiyi halda satınalma müqaviləsinin lazımi qaydada yerinə yetirilməsi üçün tərəfimizdən əsas şərtlər toplusunun və ona əlavənin bütün texniki tələblərinə əməl olunacaqdır.

Bizim təklifimiz və bununla da götürdüyümüz bütün öhdəliklər əsas şərtlər toplusunun tələblərinə uyğun olaraq, təklif zərflərinin açılması günü kimi müəyyən olunmuş tarixdən başlayaraq ______________ il tarixə kimi qüvvədədir. Bu təklif bizim üçün öhdəlik kimi qalacaqdır və göstərilən müddət bitənə qədər istənilən anda qəbul oluna bilər. Tərəfimizdən təklif edilən mallara ____________ (ay/il və ya km) zəmanət verilir

Rəsmi müqavilənin hazırlanması və tərtib olunmasına qədər bu təklif, Sizin onun qəbul olunması haqqında yazılı təsdiqiniz və təklifin aksept edilməsi barədə bildirişiniz ilə birlikdə, bizim aramızda öhdəlikli Müqavilə rolunu yerinə yetirəcəkdir.

Tenderin qalibi seçildiyimiz təqdirdə, malların çatdırılması zamanı mənşə sertifikatı (MDB ölkələrindən təklif olunan mallar üçün ST-1 sertifikatı təqdim ediləcəkdir.

Biz qəbul edirik ki, Siz aldığınız ən aşağı qiyməti olan təklifi və ya ümumiyyətlə təkliflərdən hər-hansı birini qəbul etməyə borclu deyilsiniz.

Bu təklif "__"__________ 202_ - c_ il tarixdə imzalanmışdır.

_______________________________________________ adından və onun tapşırığı ilə təklifi imzalamaq üçün bütün səlahiyyətlərə malik olan

| | | |
|---|---|---|
| ____________________ (vəzifə) | ____________________ (imza) | ____________________ (a.a.soyadı) |

## Cədvəl 1. Xaricdən təklif olunan malların qiymət cədvəli

(Təklifə əlavə olunur)

| s/s | Malların adı | Mənşə ölkəsi | Texniki göstəricisi | Ölçü vahidi | Miqdarı | Mal vahidinin qiyməti[1] | Ümumi qiymət[1] |
|---|---|---|---|---|---|---|---|
| | | | | | | İncoterms-2020 şərti göstərilməklə | |
| 1 | | | | | | | |
| 2 | | | | | | | |
| 3 | | | | | | | |
| 4 | | | | | | | |
| 5 | | | | | | | |
| | | | | | | Yekun: | |
| | Mənşə ölkəsinin adı: | | | | | | |

İddiaçının adı: ______________________

İddiaçının imzası: ___________________ Möhür yeri

[1] ADY-nin tələblərinə uyğun olaraq valyutanı göstərmək lazımdır.

## Cədvəl 2. Azərbaycan Respublikası ərazisindən təklif olunan malların qiymət cədvəli

| s/s | Malların adı | Mənşə ölkəsi<br>Marka və modeli | Texniki göstəricisi | Ölçü vahidi | Miqdarı | Vahidinin qiyməti[1] (bütün xərclər nəzərə alınaraq) | Ümumi qiymət[1], (bütün xərclər nəzərə alınaraq) |
|---|---|---|---|---|---|---|---|
| 1 | | | | | | | |
| 2 | | | | | | | |
| 3 | | | | | | | |
| 4 | | | | | | | |
| 5 | | | | | | | |
| 6 | | | | | | | |
| 7 | | | | | | | |

İddiaçının adı: ______________________________________________

İddiaçının imzası: ________________________

Möhür yeri

Qeyd: 1 – Valyutanı göstərmək lazımdır.

Sənəd №: 13-1/3-60-4299/2025
Tarix: 24.02.2025

**Qoşma 2**

(BANKIN RƏSMİ BLANKINDA)

Müsabiqə **təklifinin təminatı forması**

Müsabiqə predmetinin adı:______________________________(satınalma predmetinin adı)

Kimə: ________________________________________________ (satınalan təşkilatın adı)

Ünvan: ___________________________________________ (satınalan təşkilatın ünvanı)

Nəzərə alaraq ki, ________________________ (iddiaçının tam adı göstərilir) yuxarıda qeyd olunmuş müsabiqə iştirak etmək üçün özünün təklifini təqdim edəcəkdir.

Bununla Sizə bildiririk ki, Biz, ____________________________ (bankın ünvanı) ünvanda yerləşən, ____________________________ (bankın adı), (bundan sonra - Bank) ____________________________ (satınalan təşkilatın adı) (bundan sonra - Satınalan təşkilat) qarşısında ____________________________ (məbləğ) məbləğində öhdəlik götürürük və bu məbləğ Satınalan təşkilata vaxtında və tam surətdə ödəniləcəkdir. Bank bu öhdəlikləri öz adından, öz varislərinin və müvəkkillərinin adından götürür.

202_- c_ ilin _________ ayının ____-də Bankın ümumi möhürü ilə möhürlənir.

Bu öhdəliyin şərtləri aşağıdakılardır:

1. Əgər, iddiaçı müsabiqə təklifinin verilməsinin son müddəti bitdikdən sonra və ya müsabiqə təklifinin müddəti başa çatanadək öz təklifindən imtina edərsə, təklifini dəyişdirərsə və ya hesab səhvlərinin düzəlişi ilə razılaşmazsa;
2. Əgər, iddiaçı müsabiqə təklifinin qüvvədə olduğu müddət ərzində Satınalan təşkilat tərəfindən həmin təklifin aksept edilməsi haqqında bildiriş alarsa:

   a) Müqaviləni imzalaya bilməzsə, və imzalamaqdan imtina edərsə,

o zaman biz, Satınalan təşkilata yuxarıda göstərilən məbləği onun bu haqda birinci sorğusunu aldıqdan sonra, bu sorğunun əsaslandırılmasını tələb etmədən, ödəməyi öhdəmizə götürürük, bir şərtlə ki, Satınalan təşkilat öz sorğusunda yuxarıda göstərilmiş şərtlərdən hər hansı birinin, yaxud hər ikisinin baş verməsi ilə əlaqədar, həmin şərtin və ya şərtlərin olmasını dəqiqləşdirməklə, ona həmin məbləğin ödənilməli olduğunu qeyd etmiş olsun.

Hazırki təminat _______________ -ci il tarixə kimi qüvvədədir. Bu təminatla əlaqədar hər hansı tələb Banka yuxarıda qeyd olunmuş tarixə kimi təqdim olunmalıdır.

İmza və möhür:

Bankın və maliyyə idarəsinin adı: __________________________________________

Ünvanı: ________________________________________________________________

Tarix: “___” _______ 202_ - c_ il

<u>**Qoşma 3**</u>

**Analoji malların təchiz edilməsi üzrə**

**təcrübə**

___

(İddiaçının adı)

___

(Hər müqavilə üçün ayrıca blankdan istifadə edin)

___

| | |
|---|---|
| 1. | Müqavilənin nömrəsi |
| 2. | Müqavilənin predmetinin adı |
| 3. | Ölkəsi |
| 4. | Alıcının adı |
| 5. | Alıcının ünvanı |
| 6. | Müqavilənin ümumi dəyəri |
| 7. | Azərbaycan manatına ekvivalent dəyəri |
| 8. | Müqavilənin imzalandığı tarix |
| 9. | Təchizat müddəti |

Tarix: ____________________________ 202__ - c_ il.

İmza: ____________________________

Adı və soyadı: ______________________

Vəzifəsi: __________________________

Möhür

**Qoşma 4**

**İddiaçının hüquqi ünvanı və bank rekvizitləri**

İddiaçının tam adı: ______________________________________________________

Faktiki ünvanı: _________________________________________________________

Hüquqi ünvanı:
__________________________________
__________________________________
__________________________________
__________________________________

Tel: ______________________________
Faks: _____________________________
Elektron səhifəsi ____________________
E-mail: ____________________________

Bank rekvizitləri:
VÖEN: __________________________________
H/H: __________________________________
Bankın adı: __________________________________
VÖEN (Bank) __________________________________
M/H: __________________________________
Kod: __________________________________
S.W.I.F.T.: __________________________________

Tarix: ___________________________ 202__ - c_ il.

İmza: ___________________________

Adı və soyadı: _____________________

Vəzifəsi: _________________________

Möhür yeri

## Satın alınan malların siyahısı və onlara dair tələblər

| S/S | Malın, iş və ya xidmətin adı | Texniki xüsusiyyətləri, təsviri və təyinatı | Ölçü vahidi | Tələb olunan miqdar |
|---|---|---|---|---|
| 1 | Universal Vaqon platforma (fitinqlərlə birlikdə) | Yük götürmə qabiliyyəti - 67÷80 ton<br><br>Kuzovun sahəsi -37÷40 м²<br><br>Taranın çəkisi - 20,5÷25,0 ton<br><br>Təkər cütü oxundan relsə düşən ağırlıq - 23,5 tg<br><br>Ramanın uzunluğu -14000 mm az olmamaqla<br><br>Qabariti - 0 BM-1 BM<br><br>Təkər izinin eni – 1520 mm<br><br>Ox sayı – 4 əd<br><br>Çıxarılabilən yan bortların sayı – 8 əd<br><br>Çıxarılabilən kəllə bortların sayı – 2 əd | ədəd | 100 |

**Müsabiqə təklifi hazırlanan zaman aşağıdakı qeydlərdə verilmiş tələblər nəzərə alınmalıdır:**

1. Müsabiqədə təklif edilən mallar yuxarıda göstərilmiş texniki tələblərə tam cavab verməlidir.
2. Satın alınan malların mənşə ölkəsi, marka və modeli təklifdə qeyd edilməlidir.
3. Müsabiqədə təklif edilən mallar həm yeni, həm də istehsalı 10 (on) ildən çox olmayan istifadədə olmuş universal vaqon-platformalar ola bilər. İstifadədə olmuş universal vaqon-platformaların satınalma prosesi istismar ili, ölçüləri, damğaları və s. qeydlərin yerində komisyon baxılıb, uyğunluğu aktlaşdırıldıqdan sonra həyata keçiriləcəkdir.
4. Yeni universal vaqon-platformaların təkər cütləri və tökmə detalları vaqonların istehsal ili ilə eyni il olmalıdır.

5. Satın alınması planlaşdırılan universal vaqon-platformalarda, həmçinin, iri həcmli konteynerlərin də daşınması nəzərdə tutulur.

6. Müsabiqə çərçivəsində təklif edilən universal vaqon-platformaların (yeni və istifadədə olmuş) MDB ölkələrinin dəmir yollarında hərəkəti üçün müvafiq icazənin olması mütləqdir.
7. Xarici Malgöndərən, mallar təqdim edilən zaman mənşə (MDB ölkələrdən təklif olunan mallar üçün «CT1») sertifikatının təqdim edilib edilməməsi haqqında məlumatı öncədən təklifində (Qoşma 1-də) qeyd etməlidir
   **Qeyd:** MDB ölkələrdən olan malgöndərən tərəfindən "CT-1" sertifikatı təqdim olunmadıqda, "Müstəqil Dövlətlər Birliyində malların mənşə ölkəsinin təyin edilməsi qaydaları haqqında" Sazişə, "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununa və "Azərbaycan Respublikasının xarici iqtisadi fəaliyyətin mal nomenklaturası, idxal gömrük rüsumlarının dərəcələri və ixrac gömrük rüsumlarının dərəcələri"nin təsdiq edilməsi haqqında Azərbaycan Respublikası Nazirlər Kabinetinin qərarına əsasən onun qiymət təklifinə idxal gömrük rüsumu əlavə olunacaq. Bu rüsum idxal olunan malın növündən aslı olaraq malın ümumi dəyərinin maksimum 15 (on beş) %-i həcmində müəyyən edilir.
8. Müsabiqə təklifləri qiymətləndirilən zaman müxtəlif ölkələrdən təklif olunan mallara görə Azərbaycan Respublikasının qanunvericiliyi ilə müyyən edilmiş gömrük rüsumları nəzərə alınmalıdır.
9. Ölkə xaricindən təklif olunan mallar Beynəlxalq Ticarət Palatası-İCC tərəfindən dərc olunmuş İnkoterms-2020 şərtləri ilə (yalnız CPT, CIP, DAP, DPU, DDP şərtləri qəbul ediləcək) çatdırılmalıdır, Azərbaycan Respublikası ərazisindən təklif edilən mallar isə ADY-nin mərkəzi anbarına aşağıdakı ünvana təhvil verməlidir:
   **Bakı şəhəri, Binəqədi rayonu, Biləcəri qəsəbəsi, Mehdi Hüseynzadə küçəsi, 51.**
10. Satınalma müqaviləsi qüvvəyə mindikdən sonra Malgöndərən (podratçı) öhdəliklərini müəyyən olunmuş qaydada yerinə yetirmədikdə (gecikdirdikdə) ADY-nin daxili qaydalarına uyğun olaraq cərimələnə və eyni zamanda etibarsız malgöndərən kimi ADY-nin bütün satınalma əməliyyatlarından uzaqlaşdırıla bilər.
11. Müsabiqə təklifi tam, yəni müsabiqə predmetinin cədvəldəki sıra sayı pozulmadan verilməlidir. Natamam təkliflər baxılmadan kənarlaşdırılacaqdır.
12. Təklif edilən mallara minimum 3 il və ya 210 000 km zəmanət verilməlidir.
13. ADY gömrük qanunvericiliyi və seçilmiş beynəlxalq tədarük şərtləri ilə nəzərdə tutulmayan xərclərə görə məsuliyyət daşımır.
14. Tələblərə uyğun olmayan mallar aşkar edilərsə, yenisi ilə əvəz edilməsi və qüsurların aradan qaldırması üçün müddət, qüsur aşkar edildiyi tarixdən etibarən ən çox 30 (otuz) iş günüdür.

**Qoşma 6**

**Müsabiqə təkliflərinin qiymətləndirilməsi meyarları və nisbi qiymətləri**

1. **İddiaçının müsabiqəyə təqdim etdiyi təklifinin qiymətinə görə (0-40 bal):**

CƏDVƏL 1: Təkliflərin qiymətinə görə:

| № | Üstünlük veriləcək meyar | Meyara görə bal | İddiaçının adı | |
|---|---|---|---|---|
| | | | A | B |
| 1 | Təklif edilən qiymət (manatla) | | | |
| 2 | Təklifin qiymətinə görə bal | 40 | | |

Qeyd: Müsabiqəyə təqdim olunmuş təkliflərin dəyərə görə balların hesablanması aşağıdakı düsturla müəyyən olunur:

$$Q_q = Q_1 \times 40 / Q_0$$

Burada:
$Q_q$ - müsabiqə təklifinin dəyərinin balla ifadəsi;
$Q_1$ - ən səmərəli təklifin qiyməti;
$Q_0$ - müqayisə olunan təklifin qiyməti;

2. **İddiaçı tərəfindən təklif olunan malların çatdırılma müddətinə görə (0-20 bal):**

CƏDVƏL 2: Malların çatdırılma müddətinə görə:

| № | Üstünlük veriləcək meyar | Meyara görə bal | İddiaçının adı | |
|---|---|---|---|---|
| | | | A | B |
| 1 | Malların çatdırılma müddəti (təqvim günü) | | | |
| 2 | Malların çatdırılma müddətinə görə bal | 20 | | |

Qeyd: Müsabiqəyə təqdim olunmuş təkliflərdə malların çatdırılma müddətinə görə balların hesablanması aşağıdakı düsturla müəyyən olunur:

$$M_ç = M_1 / M_0 \times 20$$

Burada:
$M_ç$- çatdırılma müddətinin balla ifadəsi;
$M_1$- təkliflər arasında ən tez çatdırılma müddəti;
$M_0$- müqayisə olunan təklifdə nəzərdə tutulmuş icra müddəti;

3. **İddiaçı tərəfindən mallara verilən zəmanət müddətinə görə (0-20):**

CƏDVƏL 3: Mallar təhvil verildikdən sonra verilən zəmanət müddətinə görə:

| № | Üstünlük veriləcək meyar | Meyara görə bal | İddiaçının adı | |
|---|---|---|---|---|
| | | | A | B |
| 1 | Mallara verilən zəmanət müddəti (ay) | | | |
| 2 | Mallara verilən zəmanət müddətinə görə bal | 20 | | |

Qeyd: Mallar təhvil verildikdən sonra verilən zəmanət müddətinə görə balların hesablanması aşağıdakı düsturla müəyyən olunur:

$$Z_m = Z_0 \times 20 / Z_1$$

Burada:
$Z_m$- zəmanət təklifinin balla ifadəsi;
$Z_1$- müsabiqə təklifləri arasında ən çox zəmanət verilmiş müddət;
$Z_0$- müqayisə olunan təklifdə verilən zəmanət müddəti;

**4. İddiaçının təqdim etdiyi təklifinin ödəniş şərtlərinə görə (0-20 bal);**

CƏDVƏL 4: Təkliflərin ödəniş şərtləri:

| № | Üstünlük veriləcək meyar | Meyara görə bal | İddiaçının adı | |
|---|---|---|---|---|
| | | | A | B |
| 1 | Təklif edilən ödəniş şərti | | | |
| 2 | Təklifin ödəniş şərtlərinə görə bal | 20 | | |

Burada:
Ballar ödəniş şərtlərinə görə aşağıdakı kimi qiymətləndirilir:
- İştirakçı tərəfindən ümumi qiymətin 1-10%-i məbləğində avans tələb olunarsa, bu meyara görə ona 10 bal verilir
- İştirakçı tərəfindən ümumi qiymətin 11-20%-i məbləğində avans tələb olunarsa, bu meyara görə ona 6 bal verilir;
- İştirakçı tərəfindən ümumi qiymətin 21-30%-i məbləğində avans tələb olunarsa, bu meyara görə ona 4 bal verilir;
- İştirakçı tender təklifində avans tələb etmədikdə ona maksimum 20 bal verilir;

**CƏDVƏL: YEKUN**

| № | Cədvəllər | Meyara görə bal | İddiaçının adı | |
|---|---|---|---|---|
| | | | A | B |
| 1 | 1-ci cədvəlin yekunu | 40 | | |
| 2 | 2-ci cədvəlin yekunu | 20 | | |
| 3 | 3-cü cədvəlin yekunu | 20 | | |
| 4 | 4-cü cədvəlin yekunu | 20 | | |
| | **Cəmi:** | 100 | | |